# "Emiliya mənim üçün bir yenilikdir"

## Xalq artisti Mübariz Tağıyev "Səs Azərbaycan" yarışmasındakı tələbəsi Emiliya Yaqubova ilə birgə qonağımız oldu




**Azərbaycan teleməkanında ilk dəfə baş tutan və dövlət televiziyasında (AzTV) yayımlanan "Səs Azərbaycan" yarışması uzun müddət idi ki, böyük ajiotaja səbəb olmuşdu. Martın 5-də keçirilən final gecəsində Xalq artisti Mübariz Tağıyevin komandasından olan Emiliya Yaqubova mübarizədə rəqibindən 50 faiz yüksək səs toplayaraq (90 min 283 səs) qalib oldu.**

**Lakin səsi ilə tamaşaçıları valeh edən Emiliyanın yarışmada qalibiyyəti heç də birmənalı qarşılanmadı. Biz də layihənin qalibini və Mübariz Tağıyevi redaksiyamıza dəvət etdik. Qonaqlarımız müsabiqədə səhnə arxasında baş verənlərdən danışaraq uğurlarının sirlərini bizimlə bölüşdülər.**

**- Mübariz müəllim, "Səs Azərbaycan" müsabiqəsinin ilk həftələrində onun plagiat olduğu və digər ölkələrdəki kimi reytinqli olmayacağı deyilsə də, əslində biz bunun əksinin şahidi olduq.**

**M.T.** - Bu layihənin Azərbaycanda da keçirilməsi haqqında söhbətlər gedirdi. Düşünürdüm ki, bizim gənclərimiz dünyanın müxtəlif ölkələrində keçirilən musiqi yarışmalarına müraciət edirlər, amma əslində biz də belə bir müsabiqə keçirə bilərik. Şərtlər belə idi ki, müsabiqədə 80 faiz ingilis dilli, 20 faiz isə Azərbaycan mahnıları səslənməli idi. Vəziyyət də belə idi ki, Azərbaycanın müasir estradasına yeni səslər gəlməli idi. Azərbaycan estradası isə 90-cı illərdə yuxuya gedib, bir də 2010-cu ildə "Eurovision" mahnı müsabiqəsi başlayana yaxın ayılmışdı. O zamana qədər bir az durğunluq yaşamışıq. Azərbaycan incəsənətinə estrada musiqisi çox lazımdır. Müsabiqəyə gəlincə isə biz bu şərtlərə öyrəşməmişik. Onun necə qarşılanacağını bilmirdik. Digər tərəfdən, sevinirdik ki, dünyada tanınmış müsabiqənin Azərbaycanda keçirilməsi Azərbaycanın müasir estradasına bir yol açacaq. Belə bir layihəni ərsəyə gətirmək heç də asan məsələ deyildi. Onun arxasında həll olunması vacib olan bir çox məsələlər var idi. Bu sahədə bizim təcrübəmiz az idi. Bu işdə təcrübəsi olan insanlarla çalışmağa başladıq. Nəticədə bizdə də belə bir müsabiqə alındı və gözəl nəticə əldə etdik. Həqiqətən də müsabiqədə ingilis dilli mahnıların sayı çox idi. Arif müəllimin bu işdə bizə çox köməyi dəydi. "Səs Azərbaycan" bizim layihə olmadığı üçün ona müdaxilə etməyə ixtiyarımız yox idi.

**- Emiliya xanım, niyə məhz Mübariz müəllimi seçdiniz?**

**E.Y.** - Müsabiqədə iştirak edən münsiflərimizin hamısına böyük hörmətim var. Ailəm və çevrəmdəki dostlarım hamımız dua edirdik ki, Mübariz müəllim mənə qarşı çevrilsin, mən də onun komandasının üzvü olum. Şükürlər olsun ki, bu istəyim həyata keçdi. Gözümü açandan bəri Mübariz müəllimin mahnılarını dinləyirəm. Bu sahədə Mübariz müəllimin təcrübəsi çox olduğundan onun biliyindən bəhrələnmək istəyirdim.

**- Bəs mahnı seçimində necə, müəlliminiz prosesə müdaxilə edirdimi?**

**E.Y.** - Mübariz müəllim mahnı seçimində mənə çox kömək edirdi və mən də onun seçiminə inanırdım. Hətta mənə deyirdi ki, ən kreativ münsif sənin payına düşüb (gülür). Çünki o, dünya musiqisinə çox yaxşı bələddir. Onun seçdiyi mahnıları sevərək ifa edirəm.




**- Sizcə, Mübariz Tağıyevin adı uğurunuzda rol oynadımı?**

**E.Y.** - Əlbəttə ki, onun da böyük rolu oldu. Mən ondan çox şey öyrəndim. O, mənim daxilimdə elə bir musiqi səmti açdı ki, heç zaman inana bilməzdim ki, mən o janrda ifa edə bilərəm.

**- Adətən bizi beynəlxalq müsabiqələrdə təmsil edən iştirakçılarımız və eyni zamanda yerli müsabiqələrdə qalib gələn ifaçılarımız bir müddət sonra səhnədə görünmür, ekranlardan itirlər. Siz də onların sırasına qoşulmayacaqsınız ki?**

**E.Y.** - Xeyr. Böyük auditoriya qarşısında oxumaq mənim uşaqlıq arzumdur. Başımın üzərində Mübariz müəllim kimi ustadım var. Güman edirəm ki, məni büdrəməyə, itib-batmağa qoymaz. Layihə bitsə də, hər gün o mənimlə əlaqə saxlayır, yeni mahnılar üzərində işləyirik. Hətta o məni yaxşı tanıdığı Nigar Hacızadə adlı yaxşı bir prodüserlə tanış edib. İndi onunla çalışıram.

**M.T.** - İndiyə kimi mənim tələbələrim çox olub. İstərdim ki, Emiliyanı həmişə səhnədə görüm. Ancaq hazırda bizim şou-biznes toy biznesinə çevrilib. Bu, acı həqiqətdir. Demirəm ki, toy pisdir, onun da öz çətinlikləri var. Ancaq peşəkar səhnənin ayrı yeri var. Səhnə tamam başqa bir aləmdir. Səhnədə böyümək, onu hiss etmək, orada yetişib peşəkar müğənniyə çevrilmək tamam başqa bir hissdir. O zaman ürəklə deyə bilirsən ki, mən vətənimi təmsil edirəm, daha Azərbaycan restoranını yox. Əlimdən gələni etməyə çalışacağam ki, Emiliya Azərbaycan estradası üçün bütün töhfələrini versin. Artıq bəstəkarlarla danışmışıq. Yeni mahnılar yazılır. Bu gün Azərbaycan estradasında bir qədər plagiat mahnıların sayı yüksək həddə çatıb. Onu adi tamaşaçı hiss etmir. Ancaq bu sənətdən başı çıxanların çoxu bilir ki, estrada mahnılarının 99 faizi plagiat mahnılardan ibarətdir. Bizim həddən ziyadə peşəkar bəstəkarlarımız var. Bu gün biz onları da ruhdan salmışıq. Elə gözəl səsli ifaçılar var ki, mahnı almağa imkanı yoxdur. Elələri də var ki, imkanı var, ancaq mahnını alıb pis günə qoyur. Mahnını çox xaric oxuyurlar. Belə olan halda mahnı istiqaməti dəyişir. Peşəkar bəstəkarlar da inciyirlər ki, iki notu bilməyənlər mahnı yazırlar, onlar bu gün efiri doldururlar. Bu gün şou aləmində çox pis vəziyyət yaranıb. Emiliyaya da dedim ki, mahnı üzərində işləmək istəyiriksə, mən qeyri-peşəkar bəstəkarlarla işləməyəcəm. Düzdür, bu sahədə Allah vergisi olan insanlar da var. Daxilində o istedad olmayan insanlar özləri mahnı yazıb bəstələyəndə ikinci, üçüncü mahnısında olmasa da, ən uzağı dördüncü mahnısında plagiat olduğu özünü büruzə verir. Ancaq bəzilərində isə görürsən ki, bu onun öz dəst-xəttidir.

Hər zaman "Eurovision" müsabiqəsi başlayanda məni dərd götürürdü. Düşünürdüm ki, nə üçün belə böyük arenaya çıxdığımız anda bizim yerli bəstəkarlara müraciət olunmur. Peşəkar bəstəkarlarımız olduğu halda nə üçün xarici bəstəkarlardan mahnı götürməliyik? Axı biz qədim kökləri olan, böyük musiqi tarixinə malik olan xalqıq. Bu xalqın içərisində bir nəfər peşəkar bəstəkar yoxdurmu beynəlxalq arenada onun adı səslənsin? Sözün düzünə qalsa, bu gün daxildən parçalanıram. Müsabiqə elan olunmalıdır. Heç olmasa oraya müraciət edən beş bəstəkardan birinin mahnısı müsabiqəyə uyğun gələcək. Yaşımın o vaxtıdır ki, mən bu barədə fikirləşməliyəm.

**- Bu gün Azərbaycan şou-biznesində yeni səsə, yeni nəfəsə ehtiyac var. Sizcə, Emiliya o boşluğu doldura biləcəkmi?**

**M.T.** - Emiliyanın öz dəst-xətti, gözəl səs tembri var. Onun səs diapazonu çox genişdir. İstənilən çətin bir mahnını ifa etmək imkanı var. Emiliya mənim üçün bir yenilikdir. O, işinin peşəkarıdır. Emiliyanı nə Mübariz müəllim, nə də onun qohum-əqrəbaları birinci etdi. Onu musiqiyə yanaşma tərzi, peşəkarlığı birinci etdi. Mənim tələbəmi müsabiqədə birinci edə biləcək qədər imkanım yoxdur. Mən müsabiqə zamanı musiqi duyumu olan insanlara müraciət etdim. Nəticədə səs faizini görəndə çox kövrəldim. Şok bir vəziyyətə düşdüm. Birdən-birə faizin ikiqat artmasını heç kim edə bilməzdi. Müsabiqə bitdikdən sonra hərə bir söz dedi. Kimisi dedi ki, bunu Mübariz müəllimin dost-tanışları etdi. Mübariz müəllimin dost-tanışları 100, 110 səs göndərə bilər. Daha o qədər də yox.

**- Müsabiqədə dörd münsif birincilik uğrunda mübarizə aparırdı. Ən çox da Manana Caparidze ilə Tünzalə Ağayevanın gərgin mübarizəsi gedirdi. Siz qalib olanda onların Sizə münasibəti necə oldu? Qısqanclıq hissləri baş qaldırdımı?**

**M.T.** - Birinci Faiq Ağayev mənə yaxınlaşıb təbrik etdi. Daha sonra xanımlar. Ümumiyyətlə, bizim aramızda qısqanclıqdan söhbət gedə bilməz. Biz bir-birimizə çox yaxınıq. Nəyə deyirsiniz and içim, düşünürdüm ki, kim qalib gəlir-gəlsin, Azərbaycan estradasına gözəl bir səs gəlsin. Bunu səmimi deyirəm. Yaşımın o vaxtı deyil ki, fikirləşim mənim komandam olmalıdır, başqası qeyri-mümkündür. Sonda tamaşaçının seçiminə çox sevindim. Emiliyanın qalib olmasında cüzi də olsa payım olmasına çox sevindim. Düzdür, bundan əvvəl o da uzun bir məktəb keçib. Ancaq müsabiqə ərzində mahnı axtarmaq, geyim və sair xeyli zamanımızı aldı. Müsabiqə zamanı biz 4 dəfə Emiliyanın geyimini dəyişmişik. Ona qapqara paltar geyindirmişdilər. Emiliyanı qara paltarda görəndə dəli oldum. Qarayanız qıza zil qara paltar geyindirmişdilər, o itib batırdı. Axırda belə bir qənaətə gəldim ki, Emiliyaya nə geyindirirlər geyindirsinlər, ona hər şey yaraşır, təkcə qara geyimdən başqa (gülürük).

**- Emiliya, 30 min manat pul mükafatı qazandınız. 30 min manat az pul deyil. Qazandığınız pula nə edəcəksiniz?**

**E.Y.** - Bu pulu yaradıcılığıma sərf edəcəyəm. Mahnı yazdırıb, klip çəkdirmək niyyətindəyəm. Mübariz müəllimin dediyi kimi, peşəkarlara müraciət edəcəyəm. Bir də bəzi planlarım var.

**- Bəs müəllim-tələbə dueti necə, gözlənilirmi?**

**E.Y.** - Müsabiqə zamanı müəllimimlə bir duet oxuduq, ikinci duet üzərində hazırlıqlar gedir. Mübariz müəllimin repertuarında sevdiyim mahnılardan "Xatirə"ni duet şəklində ifa etməyi planlaşdırırıq.

**M.T.** - Emiliya ilə fikrimdə iki mahnı var ki, onları ifa etmək istəyirəm. Onlardan "Getdiyim yollar" və "Yağış" mahnılarının Emiliyanın səsinə düşəcəyini düşünürəm.

**- Bundan sonra hansı janrlara müraciət edəcəksiniz?**

**E.Y.** - İstəyərəm ki, həmişəyaşar mahnılara yeni nəfəs gətirim. Bir neçə retro mahnı ifa etməyi planlaşdırıram. Mübariz müəllim deyir ki, bu janr səndə çox gözəl alınır. Hələ ki mahnılarımı Mübariz müəllim seçir.

**M.T.** - Elə mahnılar var ki, kütlə üçün nəzərdə tutulub. İstəməzdim ki, Emiliya o tip mahnılara müraciət etsin. Xarici mahnılardan da imtina etmək olmaz. O, xarici mahnıları çox sevir. Caz, vokal janrı onun ifasına çox yaxındır.

**- Mübariz müəllim, komandanız tam yığılandan sonra güman edirdinizmi ki, Emiliya finala qədər gedib çıxacaq?**

- Onu görməyə vaxtım yox idi. Çünki vəziyyət elə idi ki, 16 nəfər ifaçıya mahnı axtarmalı, onlarla işləməli idim. Uşaqlarla işləyən zaman yavaş-yavaş onlar arasında seçim edirdim. Kimsə 10 dəfə deyirəm çatmır, ancaq Emiliyaya bir dəfə deyən kimi o nə demək istədiyimi anlayırdı. Emiliyaya mahnı verəndə düşünürdü ki, görəsən, mən bu mahnını oxuya biləcəmmi? Digərlərinə mahnı verəndə isə onlar səs diapazonlarına görə deyil, sadəcə, bacaracaqlarını deyib, yola verməyə çalışırdılar.

**- Mübariz müəllim, "Səs Azərbaycan" müsabiqəsində iştirak edən bir çox iştirakçılar Sizin tələbəniz idi. Ancaq onlardan bəzilərinin digər münsifləri seçmələri də gözümüzdən yayınmadı.**

**M.T.** - Tələbələrimin başqa münsifləri seçməsində qəbahət heç nə yoxdur. Elə olurdu ki, onlar çəkiliş bitdikdən sonra mənə yaxınlaşır, inciyib-incimədiyimi soruşurdular. Onlar düşünürlər ki, hər ifaçıdan nəsə götürsünlər. Düşünürdüm ki, axı Mübariz Tağıyev toylara getmir. Bu uşaqlar ağıllıdırlar, bilirlər kimi seçirlər. Ona görə onlara çox normal, müsbət yanaşırdım. Bu uşaqların böyük bir səhvi ondadır ki, hesab edirlər ki, onların oxu tərzləri hansısa münsifə uyğun gəlir. Məsələ oxu tərzi ilə həll olunmur. Müsabiqənin şərtləri tamamilə bir-birinə ziddir. Bu gün ritmik oxuyanda sabah lirik oxumalı və bütün bu şərtlərə tab gətirməlisən.

**Xəyalə Rəis**

**P.S. Müsahibənin tam variantını Kaspi.az saytından oxuya bilərsiniz.**